# Milli Teatr gününü aktyorlar necə qeyd edir?

Bu gün Milli Teatr günüdür. Elə bu münasibətlə də Adalet.az olaraq pandemiya səbəbilə 1 ildən çoxdur teatrsız qalan aktyor və aktrisaların bayramı necə qeyd etdiklərini öyrəndik.



***Rejossor, aktyor Rza Rzayev:***

"Ümumiyyətlə bayram günlərini qeyd etmirəm, hesab edirəm ki, protokol qaydasıdır bunlar, aktyor üçün bayram səhnədə olanda, rejissor üçün bayram tamaşa, film çəkən gündür. Və belə bayram günlərimiz illərlə olmur ".



***Gənc Tamaşaçılar teatrının aktrisası Asya Atakişiyeva***

"Teatr gününü teatrsız necə qeyd edərlər? Ümid edirəm, tezliklə teatrlar açılar, biz işimizə qayıdarıq və o zaman teatr günlərini səhnədə qeyd edərik".



***Rus Dram Teatrının aktyoru Elşad Süleymani:***

"Q7-yə ölüxanalardan şüşə silən axtarıram, yağış yağsa, yolu görməyəcəm".



***Gənc Tamaşaçılar Teatrının aktyoru əməkdar artist Nofəl Vəliyev:***

"Teatrlarımızın açılmağını səbrsizliklə gözləyirəm. İstəyirəm ki, toylara icazə verilsin. İnsanlar tamamən adət-ənənələrdən uzaqlaşa bilməzlər, müəyyən şərtlər altında olsa da, toy eləmək istəyirlər, ailə qurub xoşbəxt olmaq istəyirlər".

Eminquey

ədalət.- 2021.- 11 mart.- S.6.